**“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 2000-ci il iyunun 1-dək:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 118.2.-ci maddəsində nəzərdə tutulmuş şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə ödənilməli olan məbləğlərin miqdarı və verilməsi qaydasını müəyyən etsin;

öz səlahiyyəti hüdudlarında "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin *355-5.1-ci* maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Prezidenti* həyata keçirir;[1]

*2.1-1. həmin Məcəllənin 118.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*[2]

*2.1-2. həmin Məcəllənin 10-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;*[3]

2.2. həmin Məcəllənin 73.2-ci, 135.3-cü, 137.3-cü, 147-ci, 302.1-ci, 302.4-cü, 302.7-ci, 303.1-ci, 303.2-ci, 303.4-cü, 304.4-cü, 314.2-ci, 315.1-ci, 317.1-ci, 317.2-ci, 321.1-ci, 322.1-ci, 322.2-ci və 355-1.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[4]

2.3. həmin Məcəllənin 285.02-ci, 285.03-cü, 296.1-ci, 297.1-ci, 299.1-ci, 300.1-ci, maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini nazirliklər, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[5]

2.4. həmin Məcəllənin 307.2.4-cü, 307.2.5-ci, 307.2.8-ci, 315.2-ci, 339.1-ci, 341-ci və 445.0.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;[6]

2.5. həmin Məcəllənin 144.4.-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında məhkəmə nəzarətçiləri və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər.

*2.6. həmin Məcəllənin 347.1.7-ci, 348.1-ci, 348.2-ci, 348.2.1-ci, 348.2.7-ci, 349-cu, 350.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;*[7]

~~2.7. həmin Məcəllənin 350.4-cü (ikinci halda) maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər;~~[8]

*2.8. həmin Məcəllənin 355-5.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;*[9]

2.9. *həmin Məcəllənin 310.2-ci (hər iki halda), 355-8.1-ci, 355-8.2-ci, 355-9-cu və 355-10.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;*[10]

2.10. *həmin Məcəllənin 355-11.1-ci və 355-14-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;*[11]

*2.11. həmin Məcəllənin 355-20.1-ci və 355-20.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir.*[12]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 yanvar 2000-ci il
265

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 avqust 2002-ci il tarixli **758** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 8, maddə 478)**
2. 17 avqust 2006-cı il tarixli **452** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 8, maddə 677)**
3. 12 dekabr 2006-cı il tarixli **487** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1034)**
4. 12 mart 2007-ci il tarixli **547** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 226)**
5. 22 iyun 2009-cu il tarixli 102 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 414)**
6. 24 noyabr 2011-ci il tarixli **537** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2011-ci il, 254; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 1009)**
7. 17 mart 2016-cı il tarixli **850** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 19 mart 2016-cı il, 62 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 471)**
8. 23 iyun 2016-cı il tarixli **949** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, 139 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1045)**
9. 2 mart 2017-ci il tarixli **1274** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 mart 2017-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 352)**
10. 18 aprel 2017-ci il tarixli **1337** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 aprel 2017-ci il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 551 )**
11. 5 avqust 2017-ci il tarixli **1570** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 avqust 2017-ci il, 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1517)**
12. 20 noyabr 2018-ci il tarixli **348** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 noyabr 2018-ci il, 266 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2261 )**
13. 13 iyun 2019-cu il tarixli **738** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1030)**
14. 23 dekabr 2019-cu il tarixli **888** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 27 dekabr 2019-cu il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1931)**
15. 23 noyabr 2020-ci il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1358)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 18 aprel 2017-ci il tarixli **1337** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 aprel 2017-ci il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 551 )** ilə ikinci-on birinci abzaslar müvafiq olaraq 2.1-2.10-cu bəndlər hesab edilmişdir.

23 noyabr 2020-ci il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1358)** ilə 2.1-ci bənddə "**118.2-ci**" sözləri "**355-5.1-ci**" sözləri ilə, "**Nazirlər Kabineti**" sözləri "**Prezidenti**" sözü ilə əvəz edilmişdir.

[2] 23 noyabr 2020-ci il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1358)** ilə 2.1-1-ci bənd 2.1-2-ci bənd hesab edilmişdir və yeni məzmunda 2.1-1-ci bənd əlavə edilmişdir.

[3] 13 iyun 2019-cu il tarixli **738** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 iyun 2019-cu il, 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1030)** ilə yeni məzmunda 2.1-1-ci bənd əlavə edilmişdir.

[4] 17 avqust 2006-cı il tarixli 452 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 8, maddə 677)** ilə üçüncü abzasa "147-ci," sözündən sonra "302.1-ci, 302.4-cü, 302.7- ci, 303.1-ci, 303.2-ci, 303.4-cü, 304.4-cü," sözləri əlavə edilmişdir.

22 iyun 2009-cu il tarixli 102 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 414)** ilə 2-ci bəndinin üçüncü abzasında **"137.2-ci, 143.2-ci, 143.3-cü, 145.2-ci"** sözləri **"135.3-cü, 137.3-cü"** sözləri ilə əvəz edilmişdir.

24 noyabr 2011-ci il tarixli **537** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 25 noyabr 2011-ci il, 254; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 1009)** ilə 2-ci hissəsinin üçüncü abzasında "**və 322.2-ci**" sözləri "**, 322.2-ci və 355-1.1-ci** " sözləri ilə əvəz edilmişdir.

[5] 17 avqust 2006-cı il tarixli 452 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 8, maddə 677)** ilə dördüncü abzasdan "302.1-ci, 302.4-cü, 302.7-ci, 303.1-ci, 303.2-ci, 303.4-cü və 304.4-cü" sözləri çıxarılmışdır.

[6] 24 avqust 2002-ci il tarixli 758 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2002-ci il, 8, maddə 478**) ilə 2-ci bəndin beşinci abzasında **"həyata keçirir"** sözləri **"və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər"** sözləri ilə əvəz edilmişdir.

12 dekabr 2006-cı il tarixli 487 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1034**) ilə 2-ci bəndinin beşinci abzasında “**444.05-ci**” rəqəmi “**445.0.5-ci**” rəqəmi ilə əvəz edilmişdir.

[7] 23 dekabr 2019-cu il tarixli **888** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 27 dekabr 2019-cu il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1931**) ilə 2.6-cı bənd aşağıdakı redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.6. həmin Məcəllənin 347.2-ci, 348.5-ci, 349-cu, 350.4-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir;~~

[8] 12 mart 2007-ci il tarixli **547** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 226**) ilə yeddinci və səkkizinci abzaslar əlavə edilmişdir.

23 dekabr 2019-cu il tarixli **888** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 27 dekabr 2019-cu il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1931**) ilə 2.7-ci bənd ləğv edilmişdir.

[9] 17 mart 2016-cı il tarixli **850** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 19 mart 2016-cı il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 471**) ilə 2-ci hissəsinin yeddinci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda səkkizinci bənd əlavə edilmişdir.

5 avqust 2017-ci il tarixli **1570** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 6 avqust 2017-ci il, 169, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1517**) ilə 2.8-ci bənddə “**və 355-7.6-cı maddələrində**” sözləri “**maddəsində**” sözü ilə əvəz edilmişdir.

23 noyabr 2020-ci il tarixli **1189** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 24 noyabr 2020-ci il, 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1358**) ilə 2.8-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.8. *həmin Məcəllənin 355-5.1-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir;*~~

[10] 23 iyun 2016-cı il tarixli **949** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 30 iyun 2016-cı il, 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1045**) ilə 2-ci hissəsinin doqquzuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda onuncu abzas əlavə edilmişdir.

20 noyabr 2018-ci il tarixli **348** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 25 noyabr 2018-ci il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2261** ) ilə 2.9-cu bəndə “**355-8.1-ci,**” sözlərindən əvvəl “**310.2-ci (hər iki halda),**” sözləri əlavə edilmişdir.

[11] 2 mart 2017-ci il tarixli **1274** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 4 mart 2017-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 352**) ilə 2-ci hissənin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda on birinci abzas əlavə edilmişdir.

[12] 18 aprel 2017-ci il tarixli **1337** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 20 aprel 2017-ci il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 551** ) ilə 2.10-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.11-ci bənd əlavə edilmişdir.